

MARNEULI BƏLƏDIYYƏSININ VƏTƏNDAŞ BÜDCƏSI

# SIZIN ÖZÜNÜIDARETMƏ ORQANININ GƏLƏCƏYI – SIZIN ƏLINIZDƏDIR



MARNEULI BƏLƏDIYYƏSININ VƏTƏNDAŞ BÜDCƏSI

# SIZIN ÖZÜNÜIDARETMƏ ORQANININ GƏLƏCƏYI – SIZIN ƏLINIZDƏDIR

*Bizim şəhər, bizim diyarç bizim kənd – biz burada yaşayırıq. Biz dəyişikliyi gözləyə bilərik, amma yerli büdcənin planlaşdırılmasında iştirak edə bilsək, onda özümüz buranı abadlaşdıra və gözəlləşdirə biləcəyik və bununla icra hakimiyyətinə kömək etmiş olacağıq.*

Bələdiyyə büdcəsinin ayrılması və xərclənməsində vətəndaş büdcəsi vətəndaşların maraqlarını ifadə edən vasitələrdən biridir. Buna görə də, biz, şəhərlərimizin və kəndlərimizin gələcəyi üçün lazımı qərarların verilməsində özünüidaretmə orqanına və özünüidaretmə orqanı sədrinə öz töhvəmizi verməliyik. Bunun nəticəsi olaraq, maraqlarımız təstiqini tapacaq və xərclərimiz təyinatı üzrə gedəcək. Vətəndaş büdcəsi bizə bələdiyyənin necə işləməsi haqqında daha yaxşı ətraflı məlumat əldə etmək imkanı verir. Vətəndaşların fəallığı pulların bölünməsi prosesində bələdiyyə büdcəsinin daha effektib idarə edilməsi imkanını verir və müşavirlər isə cəmiyyətdə yerli əhalinin ehtiyyaclarının oyrənilməsinin effektini artırır, nəinki sorğuların keçirilməsi.

**Bu kitabça sizə Marneuli büdcəsinin necə "işləməsini", Marneuli vətəndaş büdcəsinin necə olmasını və hansı təsirli yarada biləcəyini izah edir. Hakimiyyətin məsləhətçisi və fəal vətəndaş olmağınız üçün nə edə bilərsiz? Bunu öz cümlələrinizlə necə ifadə edərdiz?**

- Marneuli haqqında qısa məlumat
- Özünüidaretmə orqanı və onun funksiyaları
- Bələdiyyə büdcəsi
- Vətəndaş büdcəsi
- Marneuli vətəndaş büdcəsi

# MARNEULI HAAQINDA QISA MƏLUMAT



**Bələdiyyəyə daxildir:** Marneuli şəhəri və 17 ərazi vahidi: Tsereteli, Şaumiyani, Şulaveri, Qızılhacılı, Qullar, Dəmyə Gorarxı, Ağkörpü, Tserakvi, Alget, Qaçağan, Kürtlər, tamarisi, Kəpənəkçi, Sadaxlı, Qasımlı və Opret.






BƏLƏDIYYƏNIN ƏHALISI

**136 000** nəfərdir

НА ТЕРРИТОРИИ МУНИЦИПАЛИТЕТА СЛЕДУЮЩИЕ ЭТНИЧЕСКИЕ ГРУППЫ:




*Etnik azərbaycanlılar - 86,4% ,*

*gürcülər - 7,8%,*

*ermənilər - 5,2%*
*və digər xırda etnik qrup nümayəndələri.*

Dini tərkibinə görə əksəriyyət müsəlmandır, sonra – xristianlar, qalan əhali isə əsasən erməni-qriqoriyan dininə mənsubdur.

# ÖZÜNÜIDARETMƏ ORQANI NƏDIR,

## onun funksiya və öhdəlikləri nədən ibarətdir

Özünüidaretmə orqanı vahidi özünün icra və təmsil etmə orqanları (icra hakimiyyəti və məclis) olan azad hüquqi müəssədir. Onun qanunla nəzərdə tutulmuş səlahiyyətləri, öz büdcəsi və mülkü var.

Büdcə qəbulu və büdcədə dəyişiklik etmə səlahiyyəti, büdcə hesabına baxış və onun icrasına qiymət vermək hüququ yalnız özünüidaretmə orqanı vahidinə aiddir.

Məclis (sakrebulo) Marneuli bələdiyyəsini təmsil edən orqandır. Marneuli bələdiyyəsinin icraçı orqanının ən böyük vəzifə sahibi – icra başçısıdır. İcra başçısı birbaşa seçki (qapalı səsvermə) yolu ilə, həmin bələdiyyənin ərazisində qeydiyyatda olan Gürcüstan vətəndaşları tərəfindən, 4 il müddətinə seçilir.



## MARNEULI BƏLƏDIYYƏSININ ƏSAS PRIORITETLƏRIDIR:

- İctimai nizam-intizam və özünü müdafiə.
- İnşaaat, yenidənqurma, infrastruktur istisması.
- Təhsil
- Mədəniyyət, din, idman
- Səhiyyə və sosial proqramlar



## MARNEULI BƏLƏDIYYƏSI AŞAĞIDAKI QƏRARLARI VERMƏKLƏ BAĞLI SƏLAHIYYƏTLƏRƏ MALIKDIR:

1) Maşın parkları yerinin müəyyən edilməsi və park qaydalarının təyin edilməsi; Qəsəbədə küçələrin təmizlənməsi, küçə işıqlandırılması, sulama sistemləri, kanalizasiya, zibil qablarının quraşdırılması, məişət tullantılarının yığılması və təkrar istifadə üçün iş planının qurulması və həyata keçirilməsi və ya onların həyata keçirilməsi üçün bələdiyyə səviyyəsində satın almanı təşkil etmək; qəbiristanlıqların texniki xidməti;

2) ) Özünüidaretmə orqanı vahidliyi ərazisinin abadlaşdırılması və yaşıllaşdırılması, aidiyyatı proqramların təstiqlənməsi, proqramla nəzərdə tutulan yığıncaqların təşkili və ya onların həyata keçirilməsi üçün bələdiyyə səviyyəsində satın almanı təşkil etmək;

3) Yerli əhəmiyyətli yolların qorunması, inşaat və inkişafın təmin olunması

4) Bələdiyyənin balansında olan su təchizatı sistemlərinin qorunub-saxlanılması

5) Yerli əhəmiyyətli kitabxanaların, muzeylərin, teatrların, sərgilərin, idman-sağlamlıq obyektlərinin fəaliyyəti, mədəni görüşlərin təşkili;

6) Gürcüstan qanunvericiliyində müəyyən olunmuş qaydalarla bələdiyyə arxivinin yaradılması və arxiv xidmətləri tariflərinin müəyyən edilməsi;

7) Məktəbə qədər və məktəbdənkənar tərbiyyə müəssələrinin gəlirsiz hüquqi müəssə formasında yaradılması və onların funksiyalarının təmin olunması;



## ÖZÜNÜIDARETMƏ ORQANI VAHIDLIYININ SƏLAHIYYƏTINƏ DAXIL DEYIL:

1) Məktəb və ali təhsil ocaqlarının fəaliyyətinin təşkili

2) Dövlət əhəmiyyətli obyektlərin fəaliyyətinə müdaxilə etmək, m.ş. dövlət əhəmiyyətli yolların, tikililərin bərpası, dövlət əhəmiyyətli göllərin və su resurslarının idarə olunması;







# YERLI BÜDCƏ NƏDIR,

## onun formalaşması və icra prinsipləri

Özünüidaretmə orqanı vahidliyi büdcəsi – məclisin təstiq etdiyi özünüidaretmə orqanının funksiyalarını və öhdəliklərini yerinə yetirmək üçün vergi və məcburi xərclərin vəhdətidir.

## BÜDCƏNIN HAZIRLANMASI VƏ TƏQDIMATI

Büdcə proektini hazırlamaq, büdcənin icrasi və hesablanması üçün cavabdehlik daşıyan yerli **icraçı orqan Marneuli İcra Hakimiyyətidir**.

Büdcə proektinin Məclisə təqdim edilməsinə qədər, icra hakimiyyətinin təşəbbüsü ilə, qeyri-hökümət təşkilatları və digər maraqlanan şəxslərin iştirakı ilə Marneuli "Mülkü Məşğulluq Mərkızi"-nin ofisində büdcə proektinin öncədən müzakirəsi təşkil olunur.

**15 noyabırdan** gec olmamaq şərtilə icra başmısı büdcə proektini təmsil etmə orqanına təslim edir.








## BÜDCƏ MÜZAKIRƏSI VƏ TƏSTIQI

1)Büdcə proekti yerli özünüidarətmə orqanının təmsiledici orqana təslim etməsindən **5 gün** sonraya qədər müzakirə üçün ictimaiyyətə təqdim edilir. Bütün bunlar yerli qəzetlərdə, bələdiyyənin veb səhifasində www.marneuli.ge, bələdiyyə binasındakı lövhələrdə qeyd edilir.

2)Yerli özünüidarətmə orqanının təmsiledici orqanı ictimai şəkildə büdcə proektini müzakirə edir və yeni büdcə ilinin başlanmasına qədər yerli özünüidarətmə orqanı vahidliyinin büdcə proektini təstiqləməsi haqqında qərar qəbul edir. **Büdcə proektinin təstiqlənməsi haqqında qərar təmsiledici orqanın tərkib çoxluğu ilə qəbul edilir.**

3)Qeydlərin olacağı halda yerli özünüidarətmə orqanının təmsiledici orqanının rəhbəri **25 noyabırdan** gec olmamaq şərtilə büdcə proekti qeydlərini icra başçısına qaytarır.

4)Büdcə proektinin eyni vəya düzəliş edilmiş variantı **10 dekabrdan** gec olmamaq şərtilə yerli özünüidarətmə orqanı vahidliyi rəhbərinə təqdim edir.



Özünüidarətmə orqanı vahidliyinin büdcə gəlirləri **daxili və xarici gəlirlərdən** ibarətdir. Daxili gəlirlərin payına yerli ödənişlər, gəlirlər, eyniləşdirici köçürmələr və Gürcüstan qanunvericiliyi ilə özünüidarətmə orqanı vahidliyinə dair digər gəlirlər düşür. Xarici gəlirlərin payına isə xüsusi və məqsədyönlü köçürmələr və Gürcüstan qanunvericiliyində nəzərdə tutulmuş digər gəlirlər düşür.

Özünüidarətmə orqanı vahidliyi **daxili gəlirlərin** xərclənməsini **azad və istədiyi şəkildə** tənzimləyə bilər.

**Xarici gəlirlər** Gürcüstan hökuməti tərəfindən təyin edilmiş qaydalarla məqsədyönlü şəkildə xərclənə bilər

## MARNEULI BƏLƏDIYYƏSININ 2015-CI IL 3 IYUL GÖSTƏRICISI ILƏ BÜDCƏSI

| Başlıq | 2015 ilin planı | | |
|---|---|---|---|
| | Ümumi | Həmçinin | |
| | | Daxili gəlirlər | İllik dövlət büdcəsi fondundan ayrılmış köçürmələr |
| **Gəlirlər** | **27 705 300** | **21 360 800** | **6 344 600** |
| Qazanc | 21 321 300 | 15 541 200 | 5 780 100 |
| Qeyri-maliyyə aktivliyinin azalması | 140 000 | 140 000 | 0 |
| Maliyyə aktivliyinin azalması (qalığı çıxmaqla) | 6 244 000 | 5 679 600 | 564 400 |
| Öhdəliklərin artımı | 0 | 0 | 0 |
| **Ödənişlər** | **27 705 300** | **21 360 800** | **6 344 600** |
| Xərclər | 11 739 300 | 11 418 600 | 320 800 |
| Qeyri-maliyyə aktivliyinin azalması | 15 332 700 | 9 434 200 | 5 898 500 |
| Maliyyə aktivliyinin azalması (qalığı çıxmaqla) | 0 | 0 | 0 |
| Öhdəliklərin artımı | 633 400 | 508 000 | 125 300 |
| Qalıq dəyişikliyi | **0** | **0** | **0** |

## MARNEULI BƏLƏDIYYƏSININ BÜDCƏ GƏLIRLƏRI

| Başlıq | 2015 ilin planı | | |
|---|---|---|---|
| | Ümumi | Həmçinin | |
| | | Daxili gəlirlər | İllik dövlət büdcəsi fondundan ayrılmış köçürmələr |
| **Gəlirlər** | **21 321 300** | **15 541 200** | **5 780 100** |
| **Ödənişlər** | **3 916 900** | **3 916 900** | **0** |
| Mülk vergisi | 3 916 900 | 3 916 900 | 0 |
| **Qrantlar** | **14 944 600** | **9 164 500** | **5 780 100** |
| Eyniləşdirici köçürmə | 8 914 500 | 8 914 500 | 0 |
| Həvalə edilmiş səlahiyyətləri həyata keçirmək üçün eyniləşdirici köçürmələr | 250 000 | 250 000 | 0 |
| **Fonddan ayrılmış köçürmələr** | **5 780 100** | **0** | **5 780 100** |
| **Digər gəlirlər** | **2 459 800** | **2 459 800** | **0** |






## MARNEULI BƏLƏDIYYƏSI BÜDCƏSININ ÖDƏNIŞLƏRI

| Başlıq | 2015 ilin planı | | |
|---|---|---|---|
| | Ümumi | Həmçinin | |
| | | Daxili gəlirlər | İllik dövlət büdcəsi fondundan ayrılmış köçürmələr |
| **Marneuli bələdiyyəsi** | 27 705 300 | 21 360 800 | 6 344 600 |
| **Təmsiledici və icraçı orqanların maliyyələşdirilməsi** | 4 593 400 | 4 593 400 | 0 |
| Özünümüdafiyə, ictimai asayiş və təhlükəsislik | 349 000 | 349 000 | 0 |
| İnşaat, yenidənqurma və istismar | 15 558 000 | 9 288 500 | 6 269 600 |
| Təhsil | 2 650 500 | 2 650 500 | 0 |
| Mədəniyyət, Din, Gənclərin tövhəsi və idman | 3 707 700 | 3 632 700 | 75 000 |
| Sosial və səhiyyə proqramları | 846 600 | 846 600 | 0 |

Yerli büdcədən xərclərin silinməsi zamanı yuxarıda qeyd edilən işlərin həyata keçirilməsində üstünlük **prioritet istiqamətlərə və növbəliliyin qorunmasına** verilir. **Prioritet istiqamətlərin sənədini icraçı orqan təyin edir və təstiq üçün büdcə proekti ilə birgə məclisə təqdim edir.**

# VƏTƏNDAŞ BÜDCƏSI

## onun əhəmiyyəti və funksiyaları

Marneuli bələdiyyə rəhbərliyi vətəndaş büdcəsi məsələlərində əhalinin daha çox fəal olmasını qarşısına məqsəd qoyub. Buna vətəndaş büdcəsi tam olaraq imkan verir. Vətəndaş büdcəsi – bələdiyyə büdcəsinin formalaşmasında və həyata keçirilməsində ictimaiyyətin fəallığını nəzərdə tutan prosesdir. Bununla ictimaiyyətə iştirak hüququ verilir ki, bələdiyyənin, şəhərin və kəndlərin gələcəyi üçün lazımi qərarlar qəbul olunsun və əhalinin maraqları nəzərə alınaraq həllini tapsın.

Bu proseslərin bir neçə variantı vardır.

**Onlardan biri** – ayrı-ayrı vətəndaşlar və təşəbbüs qrupları tərəfindən vətəndaş büdcəsi daxilində nəzərdə tutulan proektlərin həyata keçirilməsidir. Hakimiyyət ümumi budcədən pulu ayıracaq. Ictimaiyyət təqdim edilən proektləri nəzərdən keçirəcək və hansının daha prioritet, lazımi və maraqlı olması haqda qərar çıxaracaq. Seçilmiş proektin reallaşması ilə isə bələdiyyə əşğul olacaq.

**İkinci variyantın** köməyi ilə vətəndaş büdcəsi prosesinə ictimaiyyətin qoşulması mümkündür. Bu variyantda şəhər və regionun prioritetləri və perspektivləri haqda açıq diskusiya keçiriləcək. Belə vəziyyətdə biz ayrı-ayrı proektləri nəzərə almadan sual qoyuruq: İlk növbədə nəyə maliyyə ayırmalıyıq – təhsilə, sosial proqramlara və s. Bu diskusiya uzunmüddətli perspektivlərə aiddir. Nəyin daha gərəkli olduğunu ictimaiyyət özü qərar verməlidir: yeni yol, uşaq bağçası, məktəb, su təchizatı,... bunların hamısı önəmlidir, amma bəzilərinin üzərindən keçmək olar.






















# MARNEULININ VƏTƏNDAŞ BÜDCƏSI

2015-ci ildə Marneuli bələdiyyəsi 2016-cı ilin birinci vətəndaş büdcəsinin “pilot programını” həyata keçirir.

Birinci il – pilot mərhələ. Bu, vətəndaş büdcəsinin reallaşdırılması imkanlarının qiymətləndirilməsi və əlverişli qərarların qəbuludur.

Yerli xüsusiyyətlərdən dolayı, gələcəkdə dəyişikliklər baş verə bilər.

| Hər il<br>Növbəti il üçün vətəndaş büdcəsinin hazırlanması | 2015<br>2016-cı il üçün vətəndaş büdcəsinin hazırlanması |
|---|---|
| 1) Vətəndaş büdcəsi qaydalarının hazırlanması | Treninqlər: Aprel-İyul |
| 2) Prioritetlərlə bağlı diskusiyalar | 29–31 iyulda bələdiyyənin bütün kənd nümayəndələri üçün seminarlar |
| 3) Proektlərin təqdimatı | 1 avqustdan 20 avqustadək<br>18 kənd məclisi nümayəndələri üçün |
| 4) Proektlərin müzakirəsi və məşvərətlər | 26 avqust daxil olmaqla proektlərin daim təqdim edilməsi:Həmçinin proekti əhatə edən marafon zamanı 6,7 və 13,14 avqustda Marneulidə,Aşağı Saralda, Sadaxlıda. Bütün mövcud proektlər bələdiyyənin veb səhifəsində, mədəniyyət mərkəzində və mədəniyyət evlərində təqdim olunacaq |
| 5) Vətəndaşlar tərəfindən proektlərin seçilməsi | Marneuli bələdiyəsinin Tserakvi kəndində avqustun 27-29 – da Marneuli bələdiyəsinin mülki Şurasının prioritet layihələrin seçilməsi keçiriləjək (nəqliyyatı bələdiyyə təmin edir)<br>Sentyabr - bələdiyyə tərəfindən layihələrin dəqiq testi;<br>Oktyabr - layihələrin dərc edilməsi hansilar ki Mülki Büdcə çərçivəsində həyata keçiriləcək . |
| 6) Proektlərin həyata keçirilmə tarixi: 2016-ci il yanvar-dekabır | Proektlərin həyata keçirilmə tarixi: 2016-ci il yanvar-dekabır |

* *Daha ətraflı məlumat üçün, səhifə 22 görmək*



Marneuli bələdiyyəsi vətəndaş büdcəsi üçün (2016-cı ildə gerçəkləşəcək) öz büdcəsindən 1 500 000 ları ayıracaq. Kiçik proektlərin reallaşması üçün 500 000 lari nəzərdə tutulub (bir proektin maksimal dəyəri 10 000 lari təşkil edir)

1 500 000 lari Marneulinin ümumi büdcəsinin 5%-i deməkdir. Müqayisə üçün Polşada bəzi hallarda maximum 1-2% ayrılır!

## Vətəndaş büdcəsi prosesində kim və necə iştirak edə bilər

***Proektdə 16 yaşdan yuxarı, cinsindən və milli mənsubiyyətindən asılı olmayaraq hər kəs iştirak edə bilər.***

## BU ÇOX SADƏDIR! BACARACAQSIZ:

1) **İştirak edin ki, regionun ehtiyyaclarını və proektlərin seçim prinsipləri çərçivəsində işlənib-hazırlanmasını öyrənə biləsiz.**

2) **Öz proektlərinizi təklif edin.**

A. Ərizə formasını www.marneuli.ge saytında və kəndinizin qəyyumundan gürcü, azərbaycan, erməni və rus dillərində əldə edə bilərsiz.

B. Formanı doldurun, proekti izahli yazın, proektin ümumi dəyərini qeyd edin (xərcləri ayrılıqda göstərin) və əgər yardıma ehtiyyacınız olsa bələdiyyə mütəxəssisi sizə kömək edəcək.III. Proekt seçimlərində iştirak edin

C. Proekti qəyyumunuza vəya bələdiyyəyə təyin olunmuş zamana qədər (20 avqust 2015) təqdim edin.

3) **Öz proektlərinizi təklif edin.**

*2015-ci ilin 29-31 avqustunda bələdiyyənin bütün kəndlərinin nümayəndələrinə 3 treyninq keçirildi.*

## Yaxşı proekti necə yazmalı:

1) Kəndinizin ümumi problemlərə malik sakinkərinini toplayın.




2) lk növbədə məlum problemıərin siyahısını böyük formatlı kağıza yazın, son-radan isə prioritet hesab etdiyinizi seçin.

3) Mümkün qərarları qeyd edin, içərisindən gələcək üçün daha real hesab olunanı seçin.

4) Sonda formanı doldurmaq üçün lazım olan komandanı formalaşdırın( Məsələn: biri ərizəni doldursun, o biri dəyərini hesablasın və s.).



## Təxmini qiymətlərin qısa siyahısı

**İNFRASTRUKTUR**

- Küçə işıqlandırması 1 işıq dirəyi – 830 lari
- Asfalt örtük 1 kv.m – 50 lari
- Xır 1 kv.m – 10 lari
- Su çəkilməsi 500 ev – 400 000 - 450 000 lari
- Mini stadion 90 000–100 000 lari
- Kanalizasiya 200 ailə – 220 000 lari
- Sadə ictimai binaların (.məs, muzey, kitabxana) kapital təmiri 200 kv.m. – 50 000-100 000 lari .
- Eyni kateqoriyaya aid binaların kosmetik təmiri – 100 kv.m. 800 – 1000 lari





## DIGƏR

**(mədəniyyət, idman, uşaq bağçalarının funksiyonallığı və s.)**



- Uşaq bağçası baxıcısının maaşı – 360 lari
- Uşaq bağçası direktorunun maaşı – 500 lari
- Mədəni tədbirlər üçün :
- Proektor alınması – 1 200 lari.
- 2 fotoaparat – 1 000 lari.
- Kompüter/Noutbuk – 800 –1 000 lari.
- Kompüter/Noutbukun dinamikləri – 80 lari.
- Səs sitemi (2 dinamik, mixer, mikrofonlar – 2 600 – 3 400 lari.
- Mədəniyyət mütəxəssisinin/animatorun maaşı (uşaqlar üçün həftədə 2–3  əlavə dərsin keçirilməsi üçün) – 100 lari.
- Bələdiyyə müəssəsi üçün internet (Məs. Mədəniyyət evi) – 300 lari çəkilməsinin və 30 lari aylıq ödəniş.

# Yadda saxlayın!!



- Bütün vətəndaşlar və təşəbbüs qrupları birdən artıq ərizə daxil edə bilər!
- Kiçik proektlər göndərə bilərsiz – dəyəri 10 000 laridən artıq olamayan (bu proektlər üçün - 500 000 lari ayrılıb) və ya böyük proektlər (bu proektlər üçün – 1 000 000 lari ayrılıb).
- Dəyəri 10 000 laridən artıq olan proektlər üçün, təklif edirik bir neçə kəndin vəya kənd məclisinin qeyri-formal birliyini yaradasız.
- Bələdiyyənin prioritetlərini və səlahiyyətlərini yadda saxlayın və nəzərə alın!
- Fəaliyyət ardıcıllığına diqqət edin. Əgər yol, suvarma sistemi və kanalizasiya lazımdırsa – ilk növbədə yeraltı komunikasiya xətləri sonra isə yol və digərləri düzəlməlidir..
- Əgər büdcə xərcləri 5 000 larini aşarsa – bələdiyyə satınalma və xidmət üçün tender elan etməyə məcbur olacaq.
- Təstiq edilmiş bütün proektlər 2016-ci ildə bitməlidir. Ən uğurlu proektlər gələcəkdə də davam etdiriləcək.
- Bir dəfəlik fəaliyyətlərdən başqa (məs. Binanın təmiri) aylıq xərclər nəzərə alınmalıdır (məs. Inşaat/təmir – yanvar-avqust, funksiyonallıq – sentyabır – dekabır)
- Bələdiyyənin ayırdığı maliyyədən başqa, sizin tövhələriniz çox önəmlidir – sizin fəallığınız, edə bildiyiniz şeylər.

2015-ci ildə Açıq Mülki Şurası Marneuli sakinləri ən mühüm olanları seçəcək. Oktyabrın əvvəlində, yoxlanıldıqdan sonra, bələdiyyə həyata keçirilməsi üçün layihələrin siyahısını edəcək. Bu siyahı sakinləri ilə müzakirə olunacaq

## Proektin yoxlanılması

Sizin proektiniz bələdiyyə rəsmiləri tərəfindən yoxlanılır. Onlar proektin dəyərini müəyyən etməlidirlər,onun həyata keçməsinin texniki və hüquqi imkanlarını nəzərdən keçirməlidirlər ki, proektin bələdiyyənin səriştəsinə daxil olub olmamasını müəyyən etsinlər. Bundan əlavə proektin reallaşma dövrünü təyin etməlidirlər: Qısa yoxsa uzunmüddətli. Proektin dəyəri vətəndaş büdcəsinin ayırdığı ümumi məbləği aşa bilməz. Belə vəziyyətdə bu proekt bələdiyyə prioritetlərinə daxil ola bilməz və mərhələli şəkildə həyata keçirilə bilər. Yadda saxlayın ! Əgər sizin proekt vətəndaş büdcəsinə duşə bilməsə, onda, onun reallaşması başqa yolla da mümkündür (axıra qədər oxuyun)



Proektin yoxlanılması subyektiv formada aparılmaz. Önəmli olan nədirsə – Xalq qərar verməlidir!



## Marneuli həyatına qoşulmağın digər yolları

**Kənd təsərrüfatının inkişafı fondu –** Bələdiyyəyə ərizə təqdim etmə bütün il boyu mümkündür (təkcə infrastruktur proektləri üçün mərkəzi büdcədən 2015-ci ildə 2 000 000 lari ayrılıb)

**Yerli təşəbbüs qrupları –** rayon əhalisi və bələdiyyə tərəfindən proektlərin birgə həyata keçirilməsi. Bələdiyyə ləvazimatlarla təmin edir – əhali işi həyata keçirir.

**Büdcə proektlərinin müzakirəsi** – USAID-də hər il proektlərin ictimai müzakirəsi keçirilir.

**Məclis iclasında iştirak etmək** – Arzu edənlər iştirak edə bilər.

**Seçkilər** – dörd ildən bir iştirak edə bilərsiz.

**Yerli qeyri-hökümət təşkilatları** – Marneulidə fəaliyyət göstərən təşkilatlara qoşula və onların proektlərində iştirak edə bilərsiz.

## Bələdiyyədə qəbul günləri :

**İcra başçısı**
MERAB TOPÇIŞVILI

***Bazarertəsi – 9.00 –18.00***
***Çərşənbə axşamı – Cümə – 10.00 – 18.00***
tel: 0357 22 43 54

**İCRA BAŞÇISININ MÜAVINLƏRI VƏ IDARƏ RƏHBƏRLƏRI – HƏR GÜN 10.00 – 18.00**

**Müavinlər:**
ZAUR TABADZE / tel: 0357 22 24 24
TEMUR BERIDZE / tel: 0357 22 27 27
KAMANDAR İSMAYILOV / tel: 0357 22 28 28

**İdarə rəhbərləri:**
VÜQAR MAMEDOv / tel: 0357 22 12 30
NINO DEKNOIDZE / tel: 0357 22 19 98
LERI PANQANI / tel: 0357 22 22 48
TARIEL MUSAYEV / tel: 0357 22 23 23
REVAZ AREŞIDZE / tel: 0357 22 46 38
MAMUKA NAVERIANI / tel: 0357 22 44 11

Bələdiyyənin saytı və FB
www.marneuli.ge
www.facebook.com/marneuli.gov.ge

Fundacja Inna Przestrzeń
Fundacja Solidarności Międzynarodowej
ONE CAUCASUS
Polish aid

Proekt "Demokratiya dəstəyi" proqramının maliyyəsi ilə,
Polşanın əməkdaşların inkişafı proqramı çərçivəsində həyata keçirilir.
Polşa Respublikası Xarici İşlər Nazirliyi.

Nəşrdə müəlliflərin şəsxsi fikirləri təsvir olunub və mümkün deyil
Polşa Xarici İşlər Nazirliyinin mğvqeyi ilə eyni olsun.



# MARNEULI Bələdiyyəsinin Vətəndaş Büdcəsi